**Tennis idman növü üzrə idmançılara lisenziyaların verilməsi**
**QAYDASI**

## 1. ÜMUMİ MÜDDƏALAR

Bu Qayda Tennis idman növü üzrə yarışlarda iştirak edəcək idmançılara lisenziyaların verilməsi ilə bağlı prosedurları müəyyən edir.

## 2. ƏSAS ANLAYIŞLAR

2.1. Bu Qaydanın məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

2.1.1. **Konversiya prosesi** – idmançının lisenziyasındakı lisenziya növünün fərdi lisenziyaya və ya klub lisenziyasına dəyişdirilməsi;

2.1.2. **Federasiya** – “Azərbaycan Tennis Federasiyası” İctimai Birliyi;

2.1.3. **Sağlamlıq kağızı** – Tibb müəssisələri tərəfindən verilən rəsmi tibbi icazə sənədi;

2.1.4. **Sezon** – 1 yanvar-31 dekabr tarixlərini əhatə edən dövr;

2.1.5. **İdman klubu** – ″Bədən tərbiyəsi və idman haqqında″ Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə müvafiq olaraq, hüquqi və fiziki şəxslər tərəfindən yaradılan təlim-məşq, yarış, bədən tərbiyəsi-sağlamlıq fəaliyyətini həyata keçirən təşkilat;

2.1.6. **İdmançı lisenziyası** – fərdi lisenziya və ya klub lisenziyası olmaqla, idmanı özünə peşə (əmək) fəaliyyəti seçən idmançılara yarışlarda iştirak etməyə icazə verən sənəd;

## 3. İDMANÇI LİSENZİYASI VƏ ONUN VERİLMƏSİ

3.1. Tennis üzrə idmançı lisenziyasına 5 yaşından yuxarı şəxslər malik ola bilərlər.

3.2. Lisenziya ərizəsi aşağıdakı sənədlərlə birlikdə Federasiyaya təqdim edilir:

3.2.1. İdmanla məşğul olmaq və yarışlarda iştirak etmək üçün yararlı olduğunu təsdiq edən sağlamlıq kağızı;

3.2.2. 18 yaşdan kiçiklər üçün valideyn və ya qəyyumun yazılı razılığı;

3.2.3. 3 ədəd 3/4 şəkil;

3.2.4. İdmançının klubla əlaqəsini göstərən klubdan sənəd (klub lisenziyası).

3.3. İdmançı lisenziyasına sahib olmaq istəyənlər 3.2-ci bənddə göstərilən sənədləri təqdim edərək ərizə ilə Federasiyaya müraciət edirlər. Ərizəni və lazımi sənədləri təqdim edənlər üçün idmançı lisenziyasının qeydiyyatı aparılır. İdmançı lisenziyası Federasiya tərəfindən hazırlanır.

3.4. İdmançı lisenziyası aşağıda göstərilən qaydalar çərçivəsində konversiya edilə bilər.

3.4.1. Lisenziya üçün illik ödənişlər:

5-10 yaş – 40 AZN
10-12 yaş – 50 AZN
12-16 yaş – 60 AZN
16 yaş və üzəri – 80 AZN

3.5. İdmançılar yerli turnirlərdə və komanda yarışlarında lisenziyaya sahib olmadan iştirak edə bilməzlər.

3.6. Əcnəbi idmançıların lisenziya prosedurlarını həyata keçirə bilmələri üçün onlar Azərbaycan Respublikasında qanuni olaraq yaşamalı və ya ən azı 1 il yaşamaq icazəsi almalıdırlar.

3.7. Əcnəbi idmançılar üçün lisenziya prosedurları sezonun istənilən vaxtında həyata keçirilə bilər və ya hər hansı bir neçə yarışa lisenziya ala bilərlər.

3.8. Tennis klubları və ya qarışıq idman növləri olan klublarda (tennis idman növü də tədris olunan) Federasiya tərəfindən klub lisenziyası olmalıdır. Lisenziya üçün illik ödəniş 1000 AZN-dir.

3.9. Əcnəbi idmançının bütün sənədləri klub tərəfindən Federasiyaya göndərilir.

3.10. Əcnəbi idmançılardan aşağıdakı sənədlər tələb olunur: (bir müddətlik)

3.10.1. Şəxsiyyəti təsdiq edən sənəd;

3.10.2. Müvafiq orqan tərəfindən qeydiyyata alınma;

3.10.3. Xarici pasport;

3.10.4. Federasiya və ya Bakı Tennis Akademiyası ilə müqavilənin notarial qaydada təsdiq edilmiş surəti.

3.10.5. Əcnəbi idmançılardan aşağıdakı sənədlər tələb olunur: (bir illik)

3.10.6. Şəxsiyyəti təsdiq edən sənəd ;

3.10.7. Müvəqqəti yaşayış icazəsi (1 (bir) illik);

3.10.8. Xarici pasport;

3.10.9. Federasiya və ya Bakı Tennis Akademiyası ilə müqavilənin notarial qaydada təsdiq edilmiş surəti.

## 4. İDMANÇI LİSENZİYASININ ETİBARLILIQ MÜDDƏTİ VƏ QÜVVƏDƏN DÜŞMƏ ƏSASLARI

4.1. İdmançı lisenziyası 1 (bir) il müddətinə etibarlı sayılır.

4.2. İdmançı lisenziyası aşağıdakı hallarda qüvvədən düşmüş hesab edilir.

4.2.1. Fərdi lisenziya üzrə idmançının özü lisenziyasının ləğv edilməsi barədə yazılı ərizə verdikdə;

4.2.2. Bu Qaydanın 4.1-ci bəndində göstərilmiş müddət bitdikdə;

4.2.3. İdmançı tərəfindən daxili intizam qaydasının tələbləri pozulduğu halda Federasiyanın İdarə Heyətinin müvafiq qərarı əsasında.

## 5. YEKUN MÜDDƏALAR

5.1. Bu Qayda Azərbaycan Tennis Federasiyası İB-nin Ümumi Yığıncağının protokolu əsasında qüvvəyə minir.

5.2. Bu Qaydanın müddəalarını Azərbaycan Tennis Federasiyasının Prezidenti həyata keçirir.